# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN FƏLSƏFİ DÜNYAGÖRÜŞÜNDƏ EKOLOJİ İCTİMAİ ŞÜUR MƏSƏLƏSİ VƏ TƏBİƏTƏ QAYĞISI

**Zümrüd Qəhrəmanova**

*Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə*
*zumrud.q@mail.ru*

Azərbaycan yeraltı və yerüstü maddi mədəniyyət abidələri ilə zəngindir. Məhz ictimai şüur formaları sistemlərindən biri də ekoloji şüurdur. Biz cəmiyyət olaraq bu sərvətlərimizi daim qorumalıyıq və sahib çıxmalıyıq.

Təbiətə qarşı hər hansı ziyankar münasibət Ulu Öndəri çox narahat edərdi: "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də Siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..." Bu sözlərdə görkəmli dövlət xadiminin böyüklüyü qədər sadəliyi, dərinliyi qədər şəffaflığı öz əksini tapır.